**Aybəniz Əliyeva-Kəngərli,**
*Filologiya üzrə elmlər doktoru,*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun*
*elmi işlər üzrə direktor müavini*
*aybeniz.kengerli@gmail.com*

# AMEA MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNDA KİTABXANA-İNFORMASİYA FƏALİYYƏTİNİN TƏŞKİLİ

***Xülasə:*** *Məruzədə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda kitabxana-informasiya fəaliyyəti və onun inkişaf dinamikası nəzərdən keçirilmişdir. Ölkəmizdə mətnşünaslıq və mənbəşünaslıq üzrə oxucuların kitabxana-biblioqrafiya və informasiya xidməti sahəsində Əlyazmalar İnstitutunun kitabxana işinin müasir vəziyyəti təhlil olunmuşdur.*

***Açar sözlər:*** *kitab, elektron resurs, internet, ədəbiyyat, təhsil, mütaliə*

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun zəngin əlyazmalar fondu Azərbaycan xalqının tarix boyu formalaşmış fəlsəfi və sosioloji, epik və estetik, tənqid və pedaqoji, elmi, dini və mifoloji fikrinin obrazlı vəhdəti və üzvi sintezdə ifadəsi kimi ensiklopedik mahiyyət daşıyan mədəni, mənəvi və intellektual xəzinəsidir. Bu xəzinə Azərbaycan tarixinin önəmli hadisələrini əks etdirən, tarixi şəxsiyyətlərimiz haqqında dolğun və mötəbər məlumat verən, bununla da özündə geniş informasiya məkanı formalaşdırmış elmi-tarixi əhəmiyyətli mühüm mənbədir.

Yaxın və Orta Şərq yazılı abidələrinin toplanması, sistemləşdirilməsi, mühafizəsi və nəşri üzrə vahid bir mərkəz kimi 1950-ci ildə Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun əlyazmalar şöbəsi əsasında yaradılmış və 1986-cı ilə qədər Respublika Əlyazmalar Fondu kimi fəaliyyət göstərən Əlyazmalar İnstitutuna 1996-cı ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin fərmanı ilə dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin adı verilmişdir.

Hazırda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun (bundan sonra - İnstitut) fondu dünyanın ən zəngin əlyazma xəzinələrindən birinə çevrilmişdir. Buradakı ərəb qrafikalı yazılı abidələr məzmunu və nadirliyi baxımından ən məşhur kitabxana və muzeylərin eksponatlarından heç də geridə qalmır. Bu fondun əsasını orta əsr elmlərinin bütün sahələrini - tibb və astronomiya, riyaziy-

yat və mineralogiya, poetika və fəlsəfə, teologiya və hüquqşünaslıq, qrammatika, tarix və coğrafiya, bədii nəsr və poeziyaya aid Azərbaycan, türk, ərəb, fars və başqa dillərdə zəngin və nadir əlyazma kolleksiyası təşkil edir. İnstitutun fondunda 40 mindən artıq material vardır ki, bunlardan 12 minə qədəri ərəb qrafikalı əlyazmalarıdır və onlar IX-X əsrlərdə yazılmış və ya üzü köçürülmüşdür.

Bu gün İnstitutun fondunda saxlanılan əlyazmalar yeni demokratik və süveren dövlətimizin inkişafında fəal iştirakçı olan sağlam əqidəli, zəngin mənəviyyatlı və intellektual səviyyəli insanların yetişdirilməsində çox mühüm əhəmiyyət kəsb edir. Bu prosesə səmərəli təsir göstərən amillərdən biri də mətnşünaslıq və mənbəşünaslıq üzrə kitabxana-bibliorafiya və elmi informasiya fəaliyyətidir. Bu fəaliyyət cəmiyyətdə bədii-ədəbi, fəlsəfi-tarixi və elmi əsərlərin təbliğinə, oxucuların bu sahələrdə mütaliə mədəniyyətinin formalaşmasına müsbət təsir edir və elmi-tədqiqatlarının sənəd-informasiya təminatında fəal iştirak edir.

Müasir dövrdə yeni demokratik və suveren dövlətimizin möhkəmlənməsində fəal iştirakçı olan sağlam əqidəli və zəngin mənəviyyatlı insanların yetişdirilməsində çox mühüm əhəmiyyət kəsb edən milli və ümumbəşəri mənəvi irsin təbliğinə səmərəli təsir göstərən amillərdən biri əlyazmaların, daşbasma kitablarının, tarixi-arxeoqrafik sənədlərin, şəxsi arxivlərin və ümumilikdə mətnşünaslığın və mənbəşünaslığın kitabxana-biblioqrafiya və elmi informasiya sistemidir.

Mətnşünaslıq və mənbəşünaslıq üzrə kitabxana-biblioqrafiya və elmi informasiya fəaliyyəti bu sahələrdə mövcud sənədlər və informasiya tələbatçıları arasında uyğunluq yaratmaq, müvafiq sənəd kommunikasiyası sistemində informasiya maneələrinin aradan qaldırılmasında səmərəli vasitədir. Bu vasitə insanlarda cəmiyyətin ideyallarına uyğun sağlam şüurlu və estetik zövqə əsaslanan mənəvi tələbat oyadır və bu tələbatın təminatına xidmət etməklə ölkəmizdə kitabxana işinin inkişafına öz töhfəsini verir. Beləliklə, müasir şəraitdə Azərbaycanda mətnşünaslıq və mənbəşünaslıq sahələrində kitabxana-biblioqrafiya və elmi informasiya sisteminin müasir informasiya texnologiyalarına əsaslanan fəaliyyət kimi yeniləşməsi, onun elmi, sosial və kommunikativ funksiyasının təkmilləşməsi, struktur quruluşu və nəşr növlərinin zənginləşməsi, nəzəri-metodiki əsaslarının güclənməsi zəruri məsələlərdən biridir.

Müstəqillik illərində dövlətimiz, xalqımız, alimlərimiz, ziyalılarımız qarşısında duran ən mühüm vəzifələrdən biri – Azərbaycan cəmiyyətinin informasiyalaşdırılmasıdır ki, bu istiqamətdə də Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyəti çox böyük əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən, Azərbaycan Milli Elmlər Akademiyasının əsas tərkib hissələrindən biri kimi İnstitut müstəqillik dövründə xüsusilə də, son illərdə dövlət əhəmiyyətli bu prioritet məsələnin həyata keçirilməsinə və qarşıya qoyulan mühüm tələblərin icrasına başlamışdır. İnstitut Azərbaycan Respublikasının ən böyük dövlət əlyazmalar fonduna malik elmi-tədqiqat müəssisəsi, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahə-

sində yüksəkixtisaslı elmi kadrların hazırlanması üzrə aparıcı elmi mərkəz rolunu oynayan və nəhayət, Azərbaycanda mətnşünaslıq və mənbəşünaslıq elmlərinin inkişafında xüsusi xidmətləri olan elm məbədi və mənəviyyat xəzinəsidir.

Bu gün qürur hissi ilə deyə bilərik ki, XX əsrin 50-ci illərindən etibarən formalaşmağa başlamış mətnşünaslıq və mənbəşünaslıq üzrə biblioqrafik vəsaitlər sistemi Azərbaycan milli biblioqrafiyasının informasiya potensialının ən mühüm tərkib hissələrindən birini təşkil edir və ölkəmizdə kitabxana işinin inkişafına öz töhfəsini verir.

Azərbaycan xalqının ədəbi-bədii, elmi-intellektual və ictimai-siyasi fikrinin bizə gəlib çatmış maddi nümunələrinin – türkdilli, farsdilli, ərəbdilli əlyazmaların, daşbasma kitablarının, tarixi-arxeoqrafik sənədlərin, şəxsi arxivlərin toplanması, sistemləşdirilməsi, kataloqlaşdırılması, qorunması, tədqiqi, nəşrə hazırlanması və təbliği sahəsində fəaliyyət göstərən İnstitut kitabxana-biblioqrafiya fəaliyyətinə 1950-1960-cı illərdən fondunda qorunan şəxsi arxivlərin elmi təsviri ilə başlamışdır. Belə ki, 1955-ci ildə A. İbrahimovun hazırladığı "Mirzə Fətəli Axundov arxivinin təsviri"nin nəşr edilməsilə biblioqrafiyalaşdırma prosesinin əsası qoyulmuş, 1961-ci və 1965-ci illərdə Mərziyə Paşayevanın "Cəlil Məmmədquluzadə arxivinin təsviri" və "Cəfər Cabbarlı arxivinin təsviri", 1962-ci ildə isə Cənnət Nağıyevanın "Süleyman Sani Axundov arxivinin təsviri" kitabları nəşr olunmuşdur.

60-cı illərdən başlayaraq isə əlyazmaların kataloqlaşdırılması təcrübəsi həyata keçirilmiş, İnstitutun ilk "Əlyazmalar kataloqu" M. Sultanovun və C. Qəhrəmanovun redaktəsi altında 1963-cü və 1977-ci illərdə (iki clddə) nəşr edilmiş, bundan sonra əlyazamaların kataloqlaşdırılması işinə daha böyük əhəmiyyət verilmiş və bir sıra yeni kataloqlar tərtib edilmişdir.

Müstəqillik dövründə İnstitutda əlyazmaların kataloqlaşdırılması və arxiv materiallarının biblioqrafik göstəricilərinin nəşri sahəsində xeyli müsbət irəliləyiş olmuş və 2000-ci illərdə burada ərəbdilli əlyazmaların kataloqunun üç cildi, farsdilli əlyazmaların kataloqunun üç, türkdilli əlyazmaların kataloqunun iki cildi, Məhəmməd Füzulinin biblioqrafiyası, Xacə Nəsirəddin Tusinin biblioqrafiyası, "Kitabi-Dədə Qorqud"un biblioqrafiyası, Qarabağın biblioqrafiyası, "Füyuzat" jurnalının biblioqrafiyası, həmçinin C.Nağıyevanın "Yusif Vəzir Çəmənzəminli arxivinin təsviri" və M.Məmmədovanın "Müslüm Maqomayev arxivinin təsviri", eləcə də M.Adilovun "Firudin bəy Köçərlinin şəxsi arxivi" kitabları nəşr edilmişdir.

Son illərdə ölkəmizdə mətnşünaslıq və mənbəşünaslıq üzrə kitabxana-biblioqrafiya və elmi informasiya xidməti, eləcə də bu elm istiqamətlərində sənəd kütləsinin biblioqrafiyalaşdırılması prosesi getdikcə təkmilləşmiş, həmin elmlərin mühüm infrastrukturu və ayrılmaz tərkib hissəsi kimi onların inkişafına səmərəli təsir göstərən zəngin sənəd-informasiya bazasına çevrilmişdir. Bu baxım-

dan göstərilən dövr ərzində Azərbaycanda mətnşünaslıq və mənbəşünaslıq üzrə kitabxana-biblioqrafiya və elmi informasiya xidmətinin tarixi, təcrübəsi və nailiyyətlərinin öyrənilməsi və ümumiləşdirilməsi, bu mürəkkəb prosesin müasir kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmlərinin tələbləri səviyyəsində strategiyasının müəyyənləşdirilməsi mühüm nəzəri və təcrübi əhəmiyyət kəsb edir.

İnstitut öz nizamnaməsinə uyğun olaraq *"Azərbaycan ədəbi və elmi-ictimai fikrinin bizə gəlib çatmış maddi nümunələrinin (türkdilli, farsdilli, ərəbdilli əlyazmaların, daşbasma kitablarının, tarixi-arxeoqrafik sənədlərin, şəxsi arxivlərin) toplanması, sistemə salınması, kataloqlaşdırılması, qorunması, tədqiqi, nəşrə hazırlanması və təbliği"* istiqamətində fəaliyyət göstərir. Həmin istiqamətə əsasən İnstitutda *"Mətnşünaslıq, elmi-tənqidi mətnlərin tərtibi, ilkin mənbələrin tədqiqi və nəşri", "Mənbəşünaslıq, tarixi mənbələrin tədqiqi və nəşri", "Yazılı materialların dezinfeksiya və konservasiyası. Stasionar və səyyar sərgilərin təşkili"* və *"Kitabşünaslığın, biblioqrafiyaşünaslığın, kitabxanaşünaslığın nəzəri və təcrübi məsələlərinin təşkili və tədqiqi"* adlı 4 problem üzərində elmi-tədqiqat və təşkilati işlər həyat keçirilir.

Hazırda İnstitut fəaliyyət istiqamətinin bütün sahələrinin bərpası, yüksək səviyyəyə çatdırılması üçün səy göstərmiş, bu tədbirlər sırasında əsas prioritetlərdən biri kimi kitabxana-biblioqrafiya və elmi informasiya xidmətinin yeni mərhələsi başlanmış, müsbət nəticələr əldə edilmişdir. Belə ki, İnstitutda kitabxana-biblioqrafiya və elmi informasiya xidmətində iş proseslərinin avtomatlaşdırılması məqsədilə 2014-cü ildən kompüter texnologiyalarının tətbiqinə başlanılmışdır.

İnstitutda kitabxana-biblioqrafiya və elmi informasiya fəaliyyəti bir neçə istiqamətdə aparılır: *informasiya və soraq-biblioqrafiya xidməti*; *müxtəlif mövzularda biblioqrafik vəsaitlərin tərtibi və nəşri; soraq-biblioqrafiya aparatının yaradılması və təkmilləşdirilməsi; kitabxana-biblioqrafiya biliklərinin təbliği* və s. Kitabxana-biblioqrafiya fəaliyyətinin və elmi informasiya xidmətinin optimallaşdırılması istiqamətində aparılan işlər nəticəsində kitablar, retrospektiv və mövzu biblioqrafik vəsaitlər, şəxsi biobiblioqrafik göstəricilər, çap kataloqları, şəxsi arxivlərin təsviri və s. hazırlanır, yazılı biblioqrafik arayışlar tərtib edilir, şifahi arayışlar verilir və bununla alim və mütəxəssislərin daim artan informasiya tələbatı ödənilir, onlar müxtəlif elmi xarakterli informasiya ilə təmin olunur.

İnstitutda biblioqrafik fəaliyyət əsasən: *fondların soraq-biblioqrafiya aparatının (SBA) təşkili; müxtəlif məqsəd və oxucu istiqamətli biblioqrafik vəsaitlərin tərtibi; biblioqrafik informasiya xidməti; soraq-biblioqrafiya xidməti; tövsiyə biblioqrafiya xidməti; metodiki iş və məsləhətlər; biblioqrafik biliklərin təbliği; biblioqrafik iş sahəsində elmi-tədqiqat fəaliyyəti* istiqamətlərində aparılır.

Burada fəaliyyət göstərən bütün şöbələrdə biblioqrafiya işi aparılsa da, sırf biblioqrafik fəaliyyətlə məşğul olan 3 şöbə vardır:

– Kitabşünaslıq və biblioqrafiya şöbəsi;

– Kitabxana və elmi informasiya şöbəsi;
– Elektron resurslar şöbəsi.

Qeyd edilən şöbələr alim və mütəxəssislərə müasir kitabxana-biblioqrafiya və elmi informasiya xidmətinin təkmilləşdirilməsi məqsədilə 2014-cü ildə İnstitutda aparılmış struktur islahatları çərçivəsində yaradılmışdır. Onların elmi və təşkilati fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Prezident Administrasiyası rəhbərinin, Nazirlər Kabinetinin, AMEA Rəyasət Heyəti və Humanitar Elmlər Bölməsinin qərar və sərəncamlarının, şöbələrin *"Kitabşünaslığın, biblioqrafiyaşünaslığın və kitabxanaşünaslığın nəzəri və təcrübi məsələlərinin təşkili və tədqiqi"* problemi üzrə illik elmi-tədqiqat işlərinin planının icrasına yönəlmişdir.

İnstitutun *"Kitabşünaslıq və biblioqrafiya"* şöbəsi kitab, kitab işi və biblioqrafiyanın nəzəri və təcrübü məsələlərinin tədqiqi, şəxsi və mövzu biblioqrafik göstəricilərin tərtibi ilə məşğul olur. Şöbə eyni zamanda, İnstitutun müvafiq şöbələri tərəfindən hazırlanan biblioqrafik vəsaitlərin, çap kataloqlarının elmi redaktəsi və müasir dövlət standartlarına uyğun hazırlanmasına nəzarət edir.

Hazırda *"Kitabşünaslıq və biblioqrafiya"* şöbəsi öz funksiyalarını uğurla yerinə yetirir: müxtəlif mövzu və şəxsi biblioqrafik göstəricilər tərtib edir. Belə ki, şöbənin elmi-tədqiqat işlərinin planına əsasən *"Biblioqrafiyaşünaslıq: elmin informasiya təminatı"* mövzusu üzrə *"Biblioqrafik göstəricilərin tərtibi və nəşrə hazırlanması"* işi müvəffəqiyyətlə icra olunmuş, *"Azərbaycan Xalq Cümhuriyyəti - 100"* adlı biblioqrafik göstəricisinin hazırlanması üçün plan-prospekt tərtib edilmiş, materialların toplanılması və sistemləşdirilməsi prosesi həyata keçirilmişdir. *"Nizamişünaslıq"* biblioqrafik göstəricisinin hazırlanması üçün Azərbaycanın dahi şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı haqqında materiallar toplanmış, müvafiq bölmələr üzrə qruplaşdırılmışdır. *"Qafqaz əraziləri və xalqlarının nağılları"* biblioqrafik göstərisi hazırlanıb çapdan çıxmışdır.

İnstitutun *"Kitabxana və elmi informasiya"* şöbəsi müəssisənin sənəd-informasiya fondunun müasir çap və elektron ədəbiyyatla zənginləşdirilməsini, yeni daxil olan ədəbiyyatın kataloq-laşdırılmasını, dövlət təşkilatlarına, müxtəlif elmi idarələrə, alim və mütəxəssislərə kitabxana-biblioqrafiya və elmi informasiya xidmətini həyata keçirir. Şöbə İnstituta yeni daxil olan ədəbiyyatın biblioqrafik informasiya bülletenlərini hazırlayır, eləcə də, çap kataloqları və yazılı mövzu biblioqrafik arayışlar tərtib edir, oxuculara şifahi arayışlar verir.

*"Azərbaycanda elm və mədəniyyət"* adlı biblioqrafik kartotekası ilə işin aparılması, ümumi xarakterli soraq-biblioqrafik nəşrlər fondunun komplektləşdirilməsi və istifadəsinin təşkili də *"Kitabxana və elmi informasiya"*şöbəsinin fəaliyətinin əsas istiqamətlərindən biridir. Burada "*Azərbaycanda elm və mədəniyyət"* adlı biblioqrafik kartotekanın, tərtib edilmiş biblioqrafik vəsaitlərin, informasiya bülletenlərinin oxucular tərəfindən istifadəsinin öyrənilməsi istiqamətində də plana uyğun müvafiq elmi-tədqiqat işləri aparılır.

Kitabxana-biblioqrafiya və elmi informasiya fəaliyyətinin yüksək səviyyədə həyata keçiril-məsinin əsasını mükəmməl informasiya-axtarış aparatı təşkil edir. İnstitutun sənəd-informasiya fondunu məqsədyönlü və müxtəlif baxımdan dolğun və elmi cəhətdən açılmasını təmin edən, oxucuları maraqlandıran mövzular və məsələlər üzrə ədəbiyyatın seçilməsi işlərini reallaşdıran kitabxananın elmi əsaslarla qurulmuş kataloq və biblioqrafik kartotekalar sistemindən ibarət informasiya-axtarış aparatıdır.

İnstitutun sənəd-informasiya fondunun soraq-biblioqrafiya aparatı 2 hissədən ibarətdir: *soraq və biblioqrafik nəşrlər fondu; kataloq və kartoteka sistemi.* Bununla belə, mətnşünaslıq və mənbəşünaslıq işinin məqsəd və vəzifəsindən, əlyazmaların dil, zaman və mövzu xüsusiyyətlərindən asılı olaraq İnstitutun sənəd-informasiya fondunun soraq-biblioqrafiya aparatının aşağıda göstərilən özünəməxsus spesifik xüsusiyyətləri vardır: *Əlyazmaların və şəxsi arxivlərin xronoloji kataloqu; Əlyazmaların sistemli kataloqu; Əlyazmaların və müasir çap əsərlərinin əlifba kataloqu; Rəqəmsal əlyazmaların əlifba kataloqu; Əlyazmaların və müasir çap əsərlərin dil kartotekası; Əlyazmaların və müasir çap əsərlərinin mövzu kartotekası;Dövrü mətbuat və ardı davam edən nəşrlərin kartotekası; Əlyazmaşünaslıq, mətnşünaslıq və mənbəşünaslıq üzrə ümumi xarakterli soraq-biblioqrafik nəşrlər fondu; Əlyazmaşünaslıq, mətnşünaslıq, mənbəşünaslıq və digər mövzularda ödənilmiş arayışlar fondu.*

İnstitutun sənəd-informasiya fondunu əks etdirən informasiya-axtarış aparatını qeyd etdiyimiz kimi 9 adda ənənəvi kataloq və kartoteka təşkil edir ki, burada dünya xalqlarının 20-dən çox dilində nəşr edilmiş 500.000 artıq informasiya daşıyıcısı: əlyazma, kitab, dövrü və nəşri davam edən ədəbiyyat, nadir və qiymətli nəşrlər, sovet dövrünə qədərki dövri nəşrlər, dissertasiya və avtoreferatlar, fotosurətlər, qəzetlər, görkəmli alimlərin şəxsi kolleksiyaları və s. haqqında biblioqrafik məlumat əks olunmuşdur.

Burada alim və mütəxəssislərə həyata keçirilən kitabxana-biblioqrafiya və elmi informasiya xidməti çoxcəhətli və olduqca rəngarəngdir. Bu ilk növbədə oxucu tərkibinin müxtəlifliyindən irəli gəlir. Buna görə də, burada elə bir kitabxana-biblioqrafiya və elmi informasiya xidməti sistemi yaradılmışdır ki, təhsil səviyyəsindən və ixtisasından asılı olmayaraq bütün oxucular ondan istifadə edə bilir. Burada alim və mütəxəssislərə kitabxana-biblioqrafiya və elmi informasiya xidməti göstərməzdən əvvəl onların sorğu və marağı hərtərəfli öyrənilir. Çünki, hər bir oxucunun mütaliəsini düzgün istiqamətləndirməkdə bu öyrənmə mühüm əhəmiyyət kəsb edir.

Mətnşünaslıq və mənbəşünaslıq üzrə tələbatçılara göstərilən biblioqrafik xidmət İnstitutun kitabxana-biblioqrafiya və elmi informasiya fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. Onun başlıca istiqamətləri *soraq-biblioqrafiya* və *biblioqrafik məlumat* xidmətləridir.

Soraq-biblioqrafiya xidməti məlumat tələbatçılarının birdəfəlik sorğusu əsasında olan biblioqrafik xidmətdir. Məlumdur ki, oxucu-sorğu-cavab bu xidmətin əsas prosesidir. Birdəfəlik sorğunun ona verilən cavabın mövcudluğu soraq-biblioqrafiya xidmətinin xarakterik və məcburi xüsusiyyətidir. Oxucu sorğularının yerinə yetirilməsi keyfiyyəti İnstitutun əlyazmalar, müasir çap əsərləri və elektron nəşrlər fondunun tamlığından, müxtəlif fondları özündə əks etdirən soraq-biblioqrafiya aparatının təşkilindən, biblioqraf-əlyazmaşünasların ixtisas səviyyələrindən, onların fondların zəngin ədəbiyyat resursları ilə tanışlığından və bu istiqamətdə respublikanın digər yaxın profilli təşkilatlarının biblioqrafik işinin əlaqələndirilməsindən asılıdır.

İnstitutda bir sıra sorğulara biblioqraf mətnşünaslıq və mənbəşünaslıq üzrə soraq-biblioqrafiya aparatından istifadə erməklə operativ cavablandırır. Əgər arayış oxucunun iştirakı ilə yerinə yetirilirdə, bu halda o, biblioqrafik biliyinin artırılması məqsədilə biblioqrafik axtarışa cəlb olunur. Lakin İnstitutun biblioqrafik təcrübəsində elə sorğular da vardır ki, onların yerinə yetirilməsi zamanı, biblioqrafik mənbələrə baxmaqla kifayətlənilmir, digər kitabxanalarla, elmi müəssisələrlə və mütəxəssislərlə məsləhətləşmələr aparılır.

İnstitutun kitabxana-biblioqrafiya və elmi informasiya xidmətinin təhlili göstərir ki, mətnşünaslıq və mənbəşünaslıq üzrə sorğuların məqsədi olduqca müxtəlifdir: elmi iş, mühazirəyə hazırlıq, şəxsi təhsil, tədris işi və s.

İnformasiya-axtarış aparatının – kataloq və kartoteka sisteminin təkmilləşdirilməsi prosesi sürətləndirilir: yeni ədəbiyyatın əks etdirilməsi ilə onların zənginləşdirilməsi həyata keçirilir, respublikada və dünyada baş verən mühüm hadisələri əks edən yeni bölmələr və rubrikalar açılır, kataloq və kartotekaların təkrar redaktəsi aparılır.

Kitabxana-biblioqrafiya xidmətinin istiqamətlərindən biri – ədəbiyyat fondlarının təbliğ edilməsidir ki, fondların təbliğ edilməsinin formalarından olan ədəbiyyat sərgilərinin təşkili və bu sahədə İnstitutda aparılan işlərin fəallaşdırılmasına ciddi diqqət yetirilmişdir. Keçirilən sərgilər ictimai-siyasi və b. mühüm hadisələrə, elmi nailiyyətlərə, alim, şair və yazıçıların, görkəmli elm və mədəniyyət xadimlərinin yubileylərinə, beynəlxalq və respublika səviyyəli konfrans, simpozium, seminar və b. həsr olunmuşdur.

Bilindiyi kimi, informasiya və elmi biliklər elmi-texniki və sosial tərəqqinin mühüm amillərindən birinə çevrilmişdir və bu gün sivilizasiyanın inkişafında müəyyənedici rol oynayır. Qlobal informasiyalaşdırılmış cəmiyyətin planetimizdə formalaşması prosesi inkişaf edir, eyni zamanda, elmi-tədqiqat müsəssisələrinin kitabxanalarının missiyası dəyişir, oxuculara xidmətdə müəyyən informasiya fəzasının yaradılması tələb olunur. Elə buna görə də İnstitut və burada çalışan peşəkar mütəxəssislər müəssissənin kitabxanasını dünyada inkişaf etmiş ölkələrin kitabxanaları səviyyəsinə qaldırmasına səy göstərərək, müasir texnologiyala-

rın tətbiq edildiyi informasiyalaşdırma mərhələsinə qədəm qoymuşlar.

Bu gün İnstitutda biblioqrafiya və elmi informasiya xidməti kompüter texnologiyalarının istifadəsi ilə – oxuculara «retro» rejimində müxtəlif parametrlərlə informasiya axtarışı aparılır, İnternet şəbəkəsinin elektron informasiya ehtiyatlarından istifadə edərək, İnstitutun əməkdaşları tərəfindən hazırlanan çap məhsullarının: *kitab və monoqrafiyaların, biblioqrafik informasiya xidmətində ən mühüm vəsaitlərdən olan və oxucular tərəfindən geniş istifadə edilən retrospektiv, mövzu və şəxsi biblioqrafik göstəricilərin, çap kataloqlarının, şəxsi arxivlərin təsviri, yeni daxil olan kitabların, dövri və nəşri davam edən ədəbiyyatın biblioqrafik informasiya göstəricilərinin və s. yığımı və çapa hazırlanması* prosesləri yeni texnologiyaların tədbiqi vasitəsilə həyata keçirilir.

İnstitutun "Elektron resurslar" şöbəsi fondlarda saxlanılan əlyazmaların və əski çap kitablarının müasir informasiya vasitələrinin tətbiqi olu ilə elektron kataloqunun, elektron kitabxanasının yaradılması işi ilə məşğul olaraq, rəqəmsallaşdırılmış əlyazmaları uzunmüddət saxlanması və istifadəsi üçün multimediya disklərinə köçürür. Eyni zamanda İnstitutun rəsmi elektron səhifəsi olan *"www.elyazmalarinstitutu.com"* veb saytının optimal kontentini formalaşdırır və onun aktuallığını və qorunmasını təmin edir.

2015-ci ildə İnstitutun fondunda saxlanılan əlyazmaların (türk, ərəb, fars dilli əlyazmalar) elektron kataloqunun formalaşdırılması məqsədilə "ИРБИС-64" avtomatlaşdırılmış kitabxana-informasiya sistemi (AKİS) şöbədə kompüterlərə yüklənmiş, AKİS-in işçı yerləri və serveri quraşdırılmış, şəbəkə yaradılmışdır. "ИРБИС-64" Avtomatlaşdırılmış kitabxana-informasiya sistemi yenilənmiş, yəni düzəlişlər və əlavələr edilərək son versiyası tətbiq olunmuşdur.

Dünya informasiya sistemində İnstitutun kitabxana-informasiya resurslarının təbliği, dövlətlərarası ədəbiyyat və informasiya mübadiləsinin dinamik inkişaf xüsusiyyətlərinin tədqiqi və həyata keçirilməsi, xarici ölkələrdə Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı mənbələrin müəyyənləşdirilməsi, əldə edilməsi, tədqiqi və təbliği istiqamətində tədbirlər də genişləndirilir.

İnstitutda aparılan tədqiqatların istiqamətlərinə müvafiq yerli və xarici çap və müasir informasiya daşıyıcıları ilə fondların komplektləşdirilməsi, fondların formalaşdırılması işinin davamlı şəkildə inkişafı, azərbaycanşünaslığı inkişaf etdirmək məqsədi ilə ölkəşünaslığa, diyarşünaslığa dair materiallarla fondların zənginləşdirilməsi, ölkəşünaslığa dair dünya kitabxanalarında saxlanılan ədəbiyyatın və əlyazmaların müəyyənləşdirilməsi, onların çatışmayan nüsxələrinin Azərbaycan Respublikasına gətirilməsi məqsədi ilə müvafiq layihələr həyata keçirilir, xarici və yerli elektron tammətnli məlumat bazaları əldə edilir.

Nəticə olaraq qeyd etmək olar ki, müasir mərhələdə İnstitutda kitabxana-biblioqrafiya və elmi informasiya xidməti sahəsində aparılan elmi-tədqiqat işlərinin mövcud istiqamətlərinin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən təd-